*https://doi.org/10.30546/114578.2025.9.1011*

# AZƏRBAYCANIN MAARİFÇİLİK MÜHİTİNDƏ "ƏKİNÇİ" QƏZETİNİN ROLU

**Aytən İbrahimova**
*baş müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0000-0002-3529-0883*
*ayten_edahib@yahoo.com*

**Xülasə**

Hər il iyulun 22-də Azərbaycanda Mətbuat Günü qeyd olunur. Milli oyanışımızın əsasında dayanan, milli məfkurəmizin istiqamətini müəyyənləşdirən bu hadisə yarandığı zaman da, bu günün özündə də qürur və iftixar hissi ilə anılır. 1875-ci ildə işıq üzü görən və bununla böyük işıq qaynağına çevrilən "Əkinçi" qəzeti Həsən bəy Zərdabinin dirəniş və muqavimət əzminın nəticəsi olaraq yaranmışdır. Xalqa xitab etməyin yolunu mətbuatın yaranmasında, maariflənməkdə görən, mövhumat zəncirini elmin açarı ilə qırmaq əzminə inamını itirməyən Həsən bəyin inadı ona gətirdı ki, bu ağır yolçuluq sonucda milli şüur, milli tərəqqi, milli düşüncə hərəkatına çevrıldı.

Zərdabi yaradıcılığı ilə məşğul olanlar Zərdabinin Mirzə Fətəli Axundzadədən sonra Azərbaycan xalqının ikinci ən parlaq maarifçisi, mütəfəkkiri, elm və təhsili təşviq edən vətənpərvər ziyalısı olduğunu, xalqı dini mövhumatın təsir və təzyiqlərindən azad etmək üçün mübarizə apardığını vurğulayır.

**Açar sözlər:** Əkinçi qəzeti, mətbuat, maarif, milli oyanış, pedaqoji ideya.

# THE ROLE OF THE NEWSPAPER "AKINCHI" IN THE AZERBAIJANI ENLIGHTENMENT ENVIRONMENT

**Aytan Ibrahimova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Every year on July 22, Azerbaijan celebrates National Press Day. This event, which laid the foundation for our national awakening and helped define the direction of our national ideology, is remembered both at the time of its

origin and today with pride and honor. The newspaper “Akinchi”, first published in 1875 and later becoming a powerful source of enlightenment, was the result of Hasan bey Zardabi’s determination and perseverance. Believing that the path to reaching the people lay through the development of the press and education, and never losing faith in breaking the chains of ignorance with the key of science, Hasan bey’s persistence ultimately turned this difficult journey into a movement of national consciousness, national progress, and national thought.

Researchers of Zardabi’s work emphasize that, after Mirza Fatali Akhundzade, he was the second most prominent enlightener and intellectual of the Azerbaijani people − a patriotic intellectual who promoted science and education and fought to free the people from the influence and pressure of religious superstition.

**Key words:** Ekinchi newspaper, press, education, national awakening, pedagogical idea.

## РОЛЬ ГАЗЕТЫ «ЭКИНЧИ» В ПРОСВЕТИТЕЛЬСКОЙ СРЕДЕ АЗЕРБАЙДЖАНА

**Айтан Ибрагимова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Ежегодно 22 июля в Азербайджане отмечается День печати. Это событие, заложившее основу нашего национального пробуждения и определившее направление нашей национальной идеологии, вспоминают с гордостью и почтением как в момент его создания, так и в этот день. Газета «Экинчи», изданная в 1875 году и ставшая великим источником света, появилась благодаря решимости Гасан-бека Зардби противостоять и противостоять. Видя путь обращения к народу в создании печати и просвещения, и не теряя веры в свою решимость разорвать оковы суеверий ключом науки, упорство Гасан-бека привело его к тому, что этот трудный путь в конечном итоге превратился в движение национального самосознания, национального прогресса и национальной мысли.

Исследователи творчества Зардаби подчеркивают, что Зардаби был вторым по значимости просветителем и мыслителем азербайджанского народа после Мирзы Фатали Ахундзаде, патриотом и интеллектуалом, пропагандировавшим науку и просвещение, боровшимся за освобождение

народа от влияния и давления религиозных суеверий.

**Ключевые слова**: газета «Экинчи», пресса, образование, национальное пробуждение, педагогическая идея.

**Giriş/Introduction**

Mətbuatın yaranması müxtəlif problemlər üzrə pedaqoji ideyaların inkişaf dinamikasını şərtləndirən amillərdən biridir. Azərbaycanda mətbuatın, o cümlədən, pedaqoji mətbuatın tarixi çox da qədim deyil. "*Təkcə banisi, redaktoru, müəllifləri deyil, məzmunu, ideya istiqaməti, dili, poliqrafik bazası, oxucuları da nəşr olunduğu torpaqla bağlı olan, onun mənəvi və maddi həyatına əsaslanan, ilk növbədə doğma həmvətənlərə xidmət edən birinci qəzet "Əkinçi"dir ki, Azərbaycan milli mətbuatının tarixi də, çox təbii, bu qəzetlə başlanır*" [Abdullayev, 2021:6]. Azərbaycan dilində mətbuatın yaranması XIX əsrin 70-ci illərindən başlasa da, əldə olan məlumatlara görə, XIX əsrin 30-40-cı illərində bu sahədə müəyyən təşəbbüslər göstərilmişdi. Lakin bu qısa müddət ərzində o, "*zəngin inkişaf yolu keçmiş, ayrı-ayrı pedaqoji təmayüllü jurnal və qəzetlərdə, elmi-pedaqoji məcmuələrdə damla-damla toplanan pedaqoji ideyalar sonralar elmi pedaqogikanın yaranması ilə nəticələnmişdir"* [Akimova, 2021:10].

Azərbaycanın görkəmli alimi, təbiətşünas və maarifpərvəri Həsən bəy Məlikov Zərdabinin (1837-1907) nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə milli mətbuatın əsası qoyulub. 1875-ci il iyul ayının 22-dən nəşrə başlayıb 1877-ci ildə fəaliyyətini dayandıran "Əkinçi" qəzetinin cəmi 56 nömrəsi çıxıb. H.Zərdabi "Əkinçi" qəzetinin əsas məqsəd və vəzifələrindən bəhs edərək yazırdı: "*Qəzetin muradı xalqın gözünü açmaqdır, həyatda olan işləri ayna kimi xalqa göstərsin ki, xalq da onun əlacının dalınca getsin. Heç rəvadırmı yoxsulluqdan danışarkən onun səbəbi elmsiz qalmağımızdan danışmayaq? Biz müsəlmanlar elmdən vəba naxoşluğundan qorxan kimi qorxuruq. Əgər işlərimiz belə gedərsə, biz məğlub olub getdikcə aradan çıxacağıq. Elmsizlik böyük fəlakətdir. Bizim həmvətənlər olan gürcü, erməni xalqları təhsil etsinlər, maarif sahəsində gündən-günə irəli getsinlər, amma bizlər "Allahdan buyruq, ağzımıza quyruq" deyib duraq. Ey müsəlmanların millət təəssübü çəkən kəsləri, bir gözünüzü açıb dünyaya tamaşa edin və fikirləşin: "Tələf olmaqmı istəyirsiniz*?" [Əhmədli, 2021:10].

Tez bir zamanda "Əkinçi" qəzetinin ətrafında Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əhsənül Qəvaid, Əsgər bəy Adıgözəlov-Gorani, Əlizadə Şirvani Heydəri kimi dövrün mütərəqqi ziyalıları toplandı və qəzeti özləri üçün

mübarizə mərkəzinə çevirdilər.

Bildiyimiz kimi, bir tərəfdən çar Rusiyası Azərbaycanda gücləndirilmiş ruslaşdırma siyasəti aparır, digər tərəfdən isə yalançı din xadimləri hər cür fitnə-fəsad yaratmaqla Həsən bəyə maneəçilik törədirdilər. Ana dilində və milli ruhda qəzet nəşrinə icazə almaq üçün böyük pedaqoq Həsən bəy çar hökumətinə bir neçə dəfə xahişlə müraciət etmiş, ancaq idarələrdə, dəftərxanalarda süründürülməkdən başqa bir nəticə əldə edə bilməmişdir. “Təsadüfdən zərurət doğar” termininə nəzərən xoşbəxt bir təsadüf nəticəsində Həsən bəy qəzetin nəşrinə icazəyə müvəffəq ola bilir. Bu əhvalatı sonralar Həsən bəy “Həyat” qəzetində belə xatırlayır: “*O vaxt general Staroselski bizim qubernator idi, o, özü xalis rus, arvadı isə gürcü qızı idi. Bu qadın yerli Qafqaz əhalisinə hörmət bəsləyir və onlarla dostluq edirdi, mən öz dərdimi ona söylədim; qəzeti “Əkinçi” adlandırmağı və orada guya əkinçilik və kənd təsərrüfatı haqqında məqalələr dərc etməyi bildirməyi bu qadın mənə məsləhət gördü; o, özü senzor olmağa razılıq verdi və nəhayət, bu ruhda ərizə verib qəzetin nəşri üçün icazə aldım*” [Akimova, 2021:10].

Görkəmli tədqiqatçı-alim Əziz Mirəhmədov Həsən bəy Zərdabinin “Əkinçi” qəzetinin hökumətdən icazəsini nədənsə “yalnız üçillik ağır, gərgin işdən sonra” ala bildiyini qeyd edir. Halbuki Zərdabi “*Dörd ildir ki, qəzeti çap etməyə izn istəmişik və bu zamanda dünyanı gəzib bu hürufatı tapmışıq”* - deyir [Əhmədli, 2021:15].

Qeyd etdik ki, bir tərəfdən yalançı-mövhumatçı din xadimləri hər cür fitnə-fəsad yaratmaqla Həsən bəyi hədələyir, təhqir edir, maneəçilik törədirdilər. Ona “Qaspar”, “Vartan Həsən”, “Gavır Həsən”, “Şapkalı rus”, “Ruslaşmış Həsən”, “sünni Həsən bəy” kimi ürəkbulandıran adlar ünvanlamışlar. Halbuki Zərdabi həm şiə, həm də sünni mövhumatına qarşı kəskin mübarizə aparmışdır. Həsən bəy ona ünvanlanan başdan-ayağadək təhqirlə dolu məktubları da öz qəzetində çap etdirmişdir. Belə ki, kapitan rütbəli çar zabiti, Qarabağ mülkədarı, mövhumatçı “Hadiülmüzlim Qarabağlı” təxəllüslü biri məktubunda Həsən bəyi hətta Həsən adını daşımağa layiq görmür. Onun fikrinə görə, bu ad dinə etiqad göstərməyən adamların əli ilə faciəli bir şəkildə öldürülmüş imamın adıdır. Bu məktuba cavabən görkəmli publisist belə qeyd yazırdı: “*Bizim Zərdab kəndində Qarabağın sərhədinə bir daş qoymaq və həmin satiranı onun üstündə yazdırmaq istəyirəm ki, gələcək nəsil bu abidəyə baxanda bizim xalqı savadlandırılması uğrunda apardığım mübarizədə hansı avamlarla qarşılaşmış olduğumu bilsin*” [Camalov, 2021:19].

Göründüyü kimi, belə nadanlar ucundan Azərbaycan xalqı cəhalətdən və

mövhumatdan yaxa qurtara bilmirdi. Çünki xalqın geridə qalmış hissəsi içərisində belə bir fakt hakim idi ki, müsəlmanlara dünyəvi elm lazım deyil. Ata-babalarımız hansı yol ilə gediblərsə, biz də o yol ilə keçməliyik. Bu mənada Zərdabi yazırdı ki, "*hər bir vilayətin qəzeti gərək ol vilayətin aynası olsun, yəni ol vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə, onların hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, ol qəzetə baxan xalqı aynada görən kimi görsün"* [Əhmədli, 2021:19].

"Əkinçi" qəzetinin proqramı zəngin idi. Bu zəngin proqram içərisində xalqı nadanlıqdan, maarifsizlikdən, gerilikdən, savadsızlıqdan çıxarıb, geniş mədəniyyət yoluna aparmaq, təhsil, elm sahəsində ona öz hüququnu başa salmaq, savadlı etmək, məktəb açıb onları oxutmaq məsələsi geniş yer tuturdu. Qəzet yazırdı ki, xalqımızın inkişafına mane olan səbəblərdən biri də mövhumatdır. Mədəniyyət inkişaf edir, yeni ixtiralar kəşf edilir, lakin bizim müsəlman aləmi yerində sayır. Dünya bir şeydir ki, həmişə dövran edir və insan bu dövr dünyanın gərdişinə görə öz rəftarını da dəyişdirməlidir. *"Dünya beş gündür, beşi də qaradır"deyənlər başa düşmürlər ki, dünyası olmayan axırda yox olur. Biz öz qüvvəmizlə bu yoxsulluqdan xilas olmalıyıq. Biz bunu etməyə cəhd göstərməliyik, "bizə göydən kömək gəlməyəcək"* [Abdullayev, 2021:6].

M.F.Axundovun "Əkinçi"qəzetində xalq maarifi və məktəb uğrunda mübarizədən bəhs edən bir məqaləsi bu cəhətdən daha çox xarakterikdir. Həmin məqalədə deyilirdi: "*Bizim əzizimiz və gözümüzün işığı, Həsən bəy! Sən hər qəzetində biz müsəlman tayfasına elmin fəzilətini və səmaratını zinc edib, bizə hey təklif edirsən, elm öyrənin, elm öyrənin! Çox yaxşı... İndi biz hazırıq ki, sənin nəsihətini əmələ gətirək. Bizə de görək, elmi harada öyrənək və kimdən öyrənək, hansı dildə öyrənək?*" [Camalov, 2021:18]

Bu üç məsələ o dövrdə xalq maarifi və ana dilli məktəblərinin təşkili qarşısında duran çox mühüm pedaqoji problemlər idi. Bu problemlər kütləvi xalq məktəblərinin və müəllim kadrlarının çatışmaması, təlimin ana dilində aparılmaması ilə bağlı idi.

"Əkinçi" qəzeti gənclərə, cavanlara müraciət edərək yazırdı: "*Ey elm təhsil edən cavanlarımız! Doğrudur, bizim Vətən qardaşları ilə üns tutmaq çətindir. Sizin danışdığınızı onlar başa düşməyib, əhvalınızı şəriətə müvafiq hesab edib, sizə kafir deyib incidəcəklər. Qoy şüaralar sizi həcv etsin. Mollalar lənət oxusun... daşa bassın, siz millət üçün zəhmət çəkirsiniz və... gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edir, sizə rəhmət oxuyacaq*". [Əhmədli, 2021:13].

"Əkinçi" qəzeti tərbiyənin rolunu qiymətləndirərək bildirirdi: *"...qardaşlar, yaddan çıxarmayın ki, uşaqlar millətimizin ümididirlər"* [Abdullayev, 2021:6]. .

Həsən bəy tərbiyəçini bağbana, uşağı isə meyvəyə bənzədib yazırdı ki, *"...insana uşaqlıqda yaxşı tərbiyyət verilsə, gəlib qabiliyyət sahibi olar və əgər ona tərbiyyət verilməsə və ya bəd tərbiyyət verilsə, meşə ağacı kimi turş, meyvəsi biqabiliyyət olur. Ona görə insanın qabil olmağına səbəb tərbiyədir*" [Camalov, 2021:19]. Qəzet elm ilə tərbiyəni əlaqəli, biri-birini tamamlayan bir vahidin iki hissəsi kimi götürürdü: "Qabiliyyət elm ilədir", "insan üçün tərbiyyət elm ilə olurmuş", "Elmsiz qalan kəs meşənin susuz qalan ağacı kimi bisəmərə olur" və s.

Qəzet həmçinin yazırdı: "*Tərbiyə insanın dövlətidir, mayeyi səadətidir, tərbiyə insanı yüksəldir, onu kamil bir adam edir"* [Camalov, 2021:18].

**"Əkinçi"də təlim-tərbiyə məsələləri.** Həsən bəy Zərdabinin tarixi xidmətlərindən biri də budur ki, o, "Əkinçi" qəzeti ilə Mirzə Fətəli Axundovdan sonra ana dili təlimi və dünyəvi məktəb ideyasını inkişaf etdirərək yeni yüksəkliyə qaldırdı. H.Zərdabi eyni zamanda, savad təlimi ideyasını geniş yaymış, uşaqların ümumi təhsilini, ana dilində dünyəvi məktəblər yaratmaq ideyasını dövrün tələblərinə müvafiq olaraq elmi dəlillərlə əsaslandırmışdı.

"Əkinçi" qəzeti ömrünün az olmasına baxmayaraq, Azərbaycan mətbuat tarixində böyük rol oynayıb. Demokratik ideyalarla dolu olan bu qəzet məktəb, maarif, elm və mədəniyyətin inkişafında çox böyük xidmətlər göstərib. "Əkinçi" qəzetinin bu ideyaları Azərbaycan maarifpərvərlərinin demokratik pedaqoji ideyalarının inkişafına müsbət təsir edib.

Xalqını məcnunanə bir şəkildə sevən Həsən bəy Zərdabi əkinçilik və kənd təsərrüfatı məsələlərində maarıfləndirməklə yanaşı, publisist yazılarında və xüsusən gənc valideynlərə xitabən ünvanlanan əsərlərində tərbiyə, əxlaq, əxlaq tərbiyəsi, habelə ailə, ailədə uşaqların tərbiyəsi haqqında qiymətli fikirlər söyləmişdir: "*Bizlərdə oğul atanın hüzurunda oturmaq, xörək yemək, danışmaq və qeyri eybdir. Ondan masəva, oğul atadan izinsiz nə ki iş görə bilməz, hətta evlənə də bilməz. Xülasə, ata oğulu bir şey kimi, məsələn, eşşək kimi, özünə təəlluq hesab edib hər nə öz xahişidir, ona əməl elədir və dəxt bunu fikir etmir ki, gələcəkdə bu da adam olub qəyyumsuz iş görəcək. Belədə uşaq nə ki, qeyrilərin, hətta özünün ixtiyar və borclarından bixəbər olduğuna atası kimi özündən güclülərin qabağında iki qat oluban, özündən zəifləri adam hesab etməməyə adət edir. Xülasə, nə qədər qabiliyyətli uşaq olsa, bizim adətlər ilə təlimdən insan ola bilməz. Biz övladın yağısı olub, onun axırına çıxıb*

*insaniyyətlikdən uzaq edirik. Bunu oxuyan belə qiyas etməsin ki, biz deyirik uşaq atanın sözünə baxmayıb, o buyurduğuna əməl etməsin. Bu halda ki, bizim malımızın nə qeyri düşməni artıb, uşağı dəxi bərk saxlamaq gərək ki, düşmənlərimizin ləzzətli görünən adətlərinə öyrənməsinlər. Pəs biz deyirik ki, yumruq, sillə ortalıqdan çıxsın. Uşaq ilə adamyana rəftar olunsun ki, özü yaxşını yamandan dərk edib bəd əmələ mürtəkib olmasın. Qardaşlar, hökumət ya dövlət və qeyri ilə adam insan olmaz. Hər kəs öz vücudunun qədrini bilib insaniyyət ixtiyar və borclarını əda etmək ilə insan olur. Belədə əvvəl gərək insan olub sonra dövlət və qeyri axtarma*q" [Abdullayev, 2021:6].

**Nəticə/Conclusion**

Ümumiyyətlə, "Əkinçi" qəzeti Azərbaycan maarif mühitində yeni dövrün başlanğıcını qoydu. Qəzetin səhifələrində xalqın savadlanması, elm və təhsilin əhəmiyyəti, kənd təsərrüfatının inkişafı, milli kimliyin qorunması kimi məsələlər ön plana çəkilirdi. Bu həm kəndlilərin, həm də şəhər əhalisinin dünyagörüşünün formalaşmasına və maarifçilik ideyalarının yayılmasına güclü təsir göstərdi. "Əkinçi" yalnız məlumat mənbəyi deyil, həm də maarifçi tribuna rolunu oynayaraq cəmiyyətdə yeniliklərə açıq, düşünən, milli şüura sahib bir nəsil yetişməsinə zəmin yaratdı. Eyni zamanda o, gələcək mətbuat orqanları üçün ideya və istiqamətverici nümunə oldu.

## ƏDƏBİYYAT/REFERENCES

1. Abdullayev, A. (2021). Həsən bəy Zərdabinin maarifçilik və xeyriyyəçilik fəaliyyəti / "Azərbaycan" qəzeti. − 18 iyul. − s.6.

2. Akimova, E. (2021). Zərdabi ilə qurulan Vətən məfkurəsi / "Ədəbiyyat" qəzeti. − 17 iyul. − s.10.

3. Əhmədli, R. (2021). XIX əsrdə Azərbaycanda milli şüurun formalaşmasında Mirzə Fətəli Axundovun və Həsən bəy Zərdabinin sosial-siyasi ideyalarının rolu / Elmi əsərlər / AMEA Fəlsəfə, Sosiologiya İnstitutu. − Bakı: − №1(36). − s.9-17.

4. Cavadova, E. (1988). Sətirlərdə döyünən ürək.− Bakı: Azərnəşr. −160 s.

5. Camalov, K (2021). Milli maarif mühitində əbədi "Əkinçi" işığı / 525-ci qəzet. − 28 iyul. – s.18-19.

**Məqalə tarixçəsi**
*Daxil olub* *14.08.2025*
*Düzəlişə göndərilib* *19.08.2025*
*Qəbul edilib* *30.08.2025*
*Nəşrə tövsiyə edib* *Könül Səmədova*
*filologiya elmləri doktoru, professor*